# *İki xalqın oğlu*

**Maqsud Şeyxzadə**
İki xalqın ortaq şairi

## Daşkəndnamə
***(poemadan parça)***

Mən onda gəc idim... ən şux, ən sadə,
Axırda nə oldum? Şair Şeyxzadə!
Eh, ötən günlərin yelləri əsdi,
Qalın saçımızda dolaşdı, gəzdi.
Dostlarla deyişdik, içdik, gülüşdük.
Bir qismət çörəyi yarı bölüşdük.
Daşkənd, sən özünsən böyük poema,
Səni ana kimi qorudu zaman.
Sən mənim şeirimə, beytimə düşdün,
Sən mənim bu xoşbəxt bəxtimə düşdün.
Yuxuma girərsən, uzaqda olsam
Qoynunda olaram, mən harda qalsam.
Şərab şüşəsində, mərmər qübbədə,
Bir sur papağında, əziz türbədə
Acı, istiotlu aşda görürəm,
Sürmələr çəkilən qaşda görürəm.
Mən özbək şeirinin doqquz vəznində,
Yazdım dastanımı bir yaz fəslində.
Dastan yazanlardan ölçülər aldım,
Adını hörmətlə şeirimə saldım.
Deyirlər, uzansa, dastan oxunmaz,
Gərək macərası çox olsun bir az.
Ancaq, bağışlayar məni oxucum,
Yalnız məhəbbətdir uzunçuluğum.
On səkkiz nəğmədə yazdım bir əsər,
Mənim "Daşkəndnamə"m... bəli, bu qədər.

***Daşkənd, mart–dekabr, 1957***